# Uğurlu gələcək–Sizinlə gələcək

Respublikamızın bütün bölgələrində aparılan iri miqyaslı tikinti-abadlıq və yenidənqurma işləri bütün vətəndaşlar kimi qəbələliləri də sevindirir. Möhtərəm Prezidentimizin Qəbələyə hər dəfə rəsmi səfəri zamanı rayonun ab-havası daha da gözəlləşir, abadlaşır və quruculuq işləri daha geniş vüsət alır, şəhərimiz daha cazibədar olur. Son illərdə şəhərimizin, qəsəbə və kəndlərimizin siması tamamilə dəyişib, müasir yaşayış məntəqələrinə çevrilib.

Rayonumuzda regionların sosisal-iqtisadi inkişafı ikinci Dövlət Proqramı çərçivəsində uğurla davam edir. Burada planlı və ardıcıl şəkilldə aparılan tikinti-quruculuq, yaşıllaşdırma, yol tikintisi və istirahət parklarının, xiyabanların salınması, işıq sisteminin yenilərı ilə əvəzlənməsi geniş vüsət almışdır. Artıq qəsəbə və kəndlərimizdən başlayaraq rayon mərkəzinə kimi uzanan yol kənarlarında bəzək ağacları əkilmiş və yeni salınmış yaşıl zolaqlar qonaqların və yerli sakinlərin diqqətini cəlb edir və hər kəsdə xoş ovqat yaradır.

Bölgəmizə istər Vəndam ərazisi tərəfindən, istərsə də Qəbələ hava limanı istiqamətindən gələn qonaqlar burada aparılmış yenidənqurma işləri, yaradılmış səliqə-sahmanı, ən hündür zirvədə dalğalanan ay-ulduzlu, üçrəngli bayrağımızı görəndə sevincini gizlədə bilmirlər.

Belə bir axarlı-baxarlı diyarda yaşamaqdan fəxr duyuruq. Mən yaşlı bir ziyalı, rayon sakini, əmək veteranı kimi bu inkişafdan, bu yeniliklərdən qürur duyuram. Şübhəsiz ki, bu inkişafda və yeniliklərdə cənab Prezidentimiz İlham Əliyevin tövsiyyə və göstərişlərinə dönmədən əməl edən hörmətli başçımız Səbuhi Abdullayevin də əməyi böyükdür.

Fərəhlə demək lazımdır ki, son illər rayonumuzda aparılan abadlıq-tikinti, quruculuq, yaşıllaşdırma işlərində və eləcə də ictimai-siyasi həyatda əhəmiyyətli dönüşə nail olmuş rayon sakinləri Prezident İlham Əliyevin Azərbaycan xalqı, ölkəmiz üçün gördüyü əzəmətli işlərin mahiyyətini dərindən dərk etməklə öz qüvvələrini yeni- yeni naliyyətlərə səfərbər edir.

Cənab Prezidentin mühüm obyektlərin, istehsal müəssisələrinin istifadəyə verilməsi ilə əlaqədar kəsdiyi hər bir lent, düyməsini basaraq təməlini qoyduğu və işə saldığı hər bir yeni sənaye müəssisəsi, bütün respublika vətəndaşlarının sevincinə səbəb olduğu kimi biz qəbələlilərdə də rəhbərə inam, gələcəyə nikbin ümüd hissi yaradır.

Bu, bir həqiqətdir ki, cənab Prezidentin Qəbələyə hər bir rəsmi səfəri zamanı, rayonumuza gələn xarici və yerli qonaqların iştirakı ilə burada keçirilən beynəlxalq iqtisadi, siyasi, diplomatik toplantılara və eləcə də mədəni-kütləvi tədbirlərə və idman yarışlarına ev sahibliyi etməsinin hər bir qəbələlinin, xüsusilə gənclərin formalaşmasında, müasirləşməsində, dünyavilləşməsində xüsusi rolu və əhəmiyyəti var. Bunu hər bir qəbələli deyir və qiymətləndirir.

Qarşıda respublika əhəmiyyətli çox böyük işlər durur. Payızda prezident seçkiləri keçiriləcəkdir. Əminliklə söyləyə bilərəm ki, 2013-cü ilin payızında keçiriləcək prezident seçkilərində qəbələlilər ölkədə demokratiyanın daha da inkişafına, müstəqilliyimizin qorunub möhkəmlənməsinə, xalqın sabah bugünkündən daha yaxşı və xoşbəxt yaşamaq haqqına, Heydər Əliyev siyasətinə—yeganə düzgün siyasətə səs verəcəklər.

Bu siyasətin uğurunu isə hazırda Prezident İlham Əliyev təmin edir və xalqımızın dəstəyi ilə gələcəkdə də təmin edəcəkdir.

Odur ki, bütün qəbələlilər ölkə Prezidenti cənab İlham Əliyevə ölkəmizdə, o cümlədən Qəbələdə aparılan quruculuq işlərində, dövlətimizin daha da möhkəmlənməsi naminə fəaliyyətində uğurlar arzulayırlar və deyirlər:

Uğurlu gələcək sizinlə gələcək, cənab Prezident.

**Fərman HACIYEV,**
**DİİXİHİ Qəbələ Rayon Komitəsinin sədri, əmək veteranı.**

# YAP sıraları artır

Yeni Azərbaycan Partiyası (YAP) Tikanlı kənd ərazi ilk partiya təşkilatının yığıncağı olmuşdur. Yığıncaqda YAP Qəbələ Rayon Təşkilatı sədrinin müavini, aparat rəhbəri Elçin Tağıyev iştirak etmişdir.





Yığıncağı giriş sözü ilə partiya üzvü, Tikanlı kənd inzibati ərazi nümayəndəsi Azər Rəfiyev açmışdır. O qeyd etmişdir ki, Tikanlı kənd ərazi ilk partiya təşkilatında 80 nəfər YAP üzvü birləşir. Partiya üzvlərinin sayı mütəmadi olaraq artır. Bu günkü yığıncağımızın gündəliyində də partiya sıralarına qəbul olunmuş yeni üzvlərə partiya vəsiqələri təqdim olunacaqdır.

Sonra bu məqsədlə söz Elçin Tağıyevə verilmişdir. O, YAP Qəbələ Rayon Təşkilatının rəhbərliyi adından tədbirdə iştirak edən YAP üzvlərini salamlamış, təşkilatın uçotunda duran partiya üzvlərinin kəndin sosisal-iqtisadi inkişafında yaxından iştirak etdiklərini söyləmiş və qeyd etmişdir ki, təşkilatın boy sırası mütəmadi olaraq artır. Bu, o deməkdir ki, əsası Heydər Əliyev tərəfindən qoyulan Yeni Azərbaycan Partiyasına göstərilən etimad rayonumuzun, bütövlükdə respublikamızın bölgələrində belə artmaqda davam edir. Hazırda rayon təşkilatının uçotunda 5508 nəfər partiya üzvü vardır. Halbuki bu təşkilat ilk dəfə yarananda 150 nəfər təəssübkeşlə fəaliyyətə başlamışdır.

İclasda həmin gün 9 nəfər partiya üzvünə yeni vəsiqələr təqdim olundu. Yeni vəsiqə alan partiya üzvü Azad Tağıyev partiya vəsiqələri alanlar adından çıxış edərək qeyd etdi ki, bu gün partiya vəsiqəsi alan yeni üzvlərin hamısını tanıyır. Onlar partiya sıralarına könüllü gəlmiş, partiya siyasətini dəstəkləyir, bu siyasətin həyata keçirilməsində fəal iştirak edirlər. Partiyanın nizamnamə və proqramını bundan sonra da daha dərindən öyrənəcəklər. Partiya sədrinin, böyük siyasi rəhbərin, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında görülən işlər göz qabağındadır. Ölkədə, o cümlədən Qəbələdə həyata keçirilən sürətli sosial-iqtisadi inkişaf, xalqın həyat tərzinin durmadan yaxşılaşması bizi sevindirir.

Partiya üzvlərindən Müşfiq Məlikov, Babək Rəfiyev, Səyahət Şəfiyev, bələdiyyə sədri Seydalı Yusifov və başqaları çıxış edərək yeni partiya üzvlərini təbrik etdilər və əmin olduqlarını bildirdilər ki, ilk təşkilatın digər üzvləri kimi onlar da partiyanın siyasi həyatında fəal iştirak edəcəklər. Səyahət Şəfiyev qeyd etdi ki, atam da partiyanın üzvü olub, mən də üzvüyəm, qızımı da bu partiyaya üzv olmağa hazırlayıram. Ölkəmizin inkişafında bu partiyanın rolu danılmazdır. Qarşıdan Prezident seçkiləri gəlir. Biz yenə də partiyamızın sədri, cənab Prezident İlham Əliyevi bu seçkilərdə dəstəkləyəcəyik.

Sonda YAP Qəbələ Rayon təşkilatının aparat rəhbəri Elçin Tağıyev çıxış edərək yeni üzvləri bir daha təbrik etdi və partiyanın keçdiyi şərəfli yoldan danışdı, çıxışını ulu öndərin sözləri ilə bitirdi: «Yeni Azərbaycan partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır».

Partiya yığıncağını Azər Rəfiyev bağlı elan etdi.

**Nadir ATAKİŞİYEV.**

## *Qəbələdə V Beynəlxalq Musiqi Festivalı başlayır*

İyulun 24-dən avqustun 6-dək Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Qəbələ V Beynəlxalq Musiqi festivalı keçiriləcəkdir. Avropanın nüfuzlu «Euronews» telekanalında artıq Qəbələ festivalının anonslarının yayımına başlanmışdır.

Festivalda Rusiya, Türkiyə, Böyük Britaniya, ABŞ, İtaliya, Fransa, Koreya Respublikası, İsrail, Litva, Kuba, Qazaxıstandan dünya şöhrətli dirijorlar, musiqiçilər və kollektivlər iştirak edəcəklər.

Sujetdə beynəlxalq musiqi tədbirlərinin Odlar Yurdunun mədəniyyətinin, incəsənətinin, turizminin tanıdılması baxımından gözəl layihə olduğu bildirilir, Azərbaycanın dünya musiqi mədəniyyəti mərkəzinə çevrildiyi qeyd edilir.

Anonsda avropalı musiqisevərlər füsunkar təbiəti olan Qəbələdə dünya musiqisinin incilərini dinləməyə dəvət olunurlar.

## Kənd yolları abadlaşır

Soltannuxa kənd inzibati ərazi dairəsində kəndarası yollara, demək olar ki, başdan-başa çınqıl tökülmüş və qrederlə yayılmışdır. Məhəllə yolları ilə birlikdə 8 kilometr məsafədə görülən işdən sakinlər çox razı qalmışlar.